

# M.P.Vaqif və M.V.Vidadinin Xatirə muzeyi

Qazax mahalı Azərbaycanın qədim torpağı, elm, maarif, mədəniyyət, ədəbiyyat, incəsənət korifeylərinin, şairlərin, yazıçıların, alimlərin, akademiklərin, generalların, sərkərdələrin, tarixi şəxsiyyətlərin vətənidir.

Molla Vəli Vidadi və Molla Pənah Vaqif XVIII əsr Azərbaycan klassik poeziyasının görkəmli nümayəndələri olub hər ikisi də qüdrətli söz-sənət dühalarıdır. Vidadi və Vaqif zirvəsi əlçatmaz və fəth olunmazdır. Vidadi və Vaqif poeziyası Azərbaycan xalqı üçün, bütün türk dünyası üçün tükənməz xəzinədir. Hər iki sənətkar öz rübabını xalq ruhunda kökləmiş, şerimizi və ana dilimizi yad təsirlərdən qorumuş, zənginləşdirmiş, gözəlləşdirmiş və saflaşdırmışdır.

M.P.Vaqif – M.V.Vidadi yaxın dost, qohum və məsləkdaş olmuşdur.

İllər, qərinələr ötüb keçir, Vidadi və Vaqif poeziyası yenə də təravətlidir. Söz-sənət sərraflarının yaradıcılıq irsi bu gün də yaşayır, xatirələri əziz tutulur. Taleyin işinə bax ki, Qazağın mərkəzində «Mütəfəkkirlər bağı»nda Vidadi və Vaqifin qoşa heykəlləri ucaldılmışdır. Qazax Dövlət Dram Teatrı M.V.Vidadinin adını daşıyır.

Ötən əsrin 70-ci illərindən Qazaxda Vaqif-Vidadi xatirə muzeyi fəaliyyət göstərir. Muzey zəngin tərtibatlı 11 salondan ibarətdir. Hazırda muzeyin fondunda 1155 eksponat vardır. Muzeydə 13 nəfər əməkdaş işləyir. Muzeyə Məhruzə Hüseynova rəhbərlik edir.

Muzeyin əməkdaşlarından Solmaz Rəsulova, Arzu Qaraməmmədli, Ülviyyə Pərvanəyeva, Sevda Məmmədova, Lalə Eyyubova, Samirə Quliyeva, Nüşabə Nəsibova və başqaları buraya gələnləri mehribanlıqla, xoş rəftarla qarşılayır, hər iki şairin həyat və yaradıcılığı barədə ətraflı məlumat verirlər.

Xatirə muzeyindəki eksponatlar, fotoşəkillər, rəsmlər, albomlar, kitablar, qəzetlər, hədiyyələr və b. sənədlər muzeydə layiqincə qorunub saxlanılır. Burada səliqə-sahmana xüsusi fikir verilir.

Muzey fəaliyyətə başlayandan burada işləyən N.Nəsibova söhbət zamanı bildirdi ki, adi məktəblidən tutmuş, elm-maarif, mədəniyyət, ədəbiyyat, incəsənət xadimlərinədək xatirə muzeyini ziyarət edir və buradan xoş təəssüratla ayrılırlar.

Muzeyin «Rəy kitabı»nı vərəqləyirəm. Alimlərdən Abbas Zamanov, Dilarə Əliyeva, Araz Dadaşzadə, şair və yazıçılardan Mirvarid Dilbazi, İsmayıl Şıxlı, Hüseyn Arif, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Nəriman Həsənzadə, Cabir Novruz, Tofiq Bayram, Davud Nəsib, Nüsrət Kəsəmənli, Zəlimxan Yaqub və başqaları vaxtı ilə muzeyin qonağı olmuş, öz ürək sözlərini muzeyin rəy kitabına yazmışlar.

Muzeydə «Vaqif» ədəbi məclisi fəaliyyət göstərir. Hər il Qazaxda Vaqif poeziya günləri keçirilir. Şer yazarlar bu bayramda yaxından iştirak edirlər. Estafet bu gün etibarlı əllərdədir. Belə ki, Vaqif və Vidadi ilə başlanan ədəbi məktəb özlərindən sonra gələn şairlər üçün yaradıcılıq məktəbi olmuşdur.

Qarşıdan Azərbaycanın böyük şairləri M.V.Vidadinin anadan olmasının 300, M.P.Vaqifin isə 290 illik yubileyləri gəlir. Xatirə muzeyində bu münasibətlə geniş tədbirlər planı hazırlanmışdır.

**Kazım KAZIMLI**